# M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANADA OXUCULARIN İNFORMASİYA TƏLƏBATININ ÖDƏNİLMƏSİNDƏ ELEKTRON KATALOQUN VƏ ELEKTRON KİTABXANANIN ROLU

**S.İ.MƏMMƏDOVA**
***Bakı Dövlət Universitetinin magistrantı***

*Məqalədə M.F.Axundov adına Milli Kitabxanada oxucuların informasiya tələbatının ödənilməsində elektron kataloqun və elektron kitabxananın rolu məsələləri öz əksini tapmışdır. Eyni zamanda burada Azərbaycanda elektron kataloqun yaradılması təşəbbüsünün ilə ilk dəfə professor A.Xələfov tərəfindən irəli sürüldüyü əks olunmuşdur.*

Müasir cəmiyyətdə gedən qlobal proseslər ictimai həyatın bütün sahələrinə təsir göstərir. Bu prosesi fərqləndirən əsas cəhət cəmiyyətin yaşaması üçün informasiyanın fundamental faktora çevrilməsidir. Əgər əvvəllər cəmiyyətin həyatı və yaşaması əsasən maddi istehsaldan asılı idisə, indi müxtəlif növ informasiyaları istifadə etmədən mümkün deyildir. Hazırda informasiyaya ictimai tələbat da dəyişir və onun nəticəsi kimi kitabxana işində də əsaslı informasiyalar, texnoloji çevrilişlər getdikcə sürətlənir. Müasir kitabxana həm ənənəvi, həm də qeyri-ənənəvi altsistemlərdən ibarət olan mürəkkəb informasiya sistemidir. Yeni informasiya sistemləri içərisində elektron kataloq və elektron kitabxana vacib yer tutur və onların yaradılması kitabxana işinin avtomatlaşdırılmasının prioritet istiqaməti hesab edilir. Məlumdur ki, kitabxana kataloqu hər bir kitabxananın ədəbiyyat fondunun məzmununu açır və oxuculara xidmət prosesində bələdçilik edir. Oxuculara xidmət və kitabxananın digər bütün fəaliyyəti məhz onun üzərində qurulur.

Müasir dövrdə informasiyanın sürətlə artması və köhnəlməsi oxuculara operativ və coğrafi uzaqlıqdan asılı olmayaraq xidmət göstərilməsini diqtə etdiyindən ənənəvi kitabxana kataloqlarını bu gün elektron kataloq əvəz edir. Elektron kataloq oxuculara şəbəkə vasitəsilə kitabxananın ədəbiyyat fondunun tərkibi ilə tanış olmağı, öz sorğularına operativ və kitabxanaçı biblioqrafın köməyi olmadan uzaq məsafədən cavab almağı, ədəbiyyatı uzaq məsafədən sifariş verməyi təmin edir. Elektron kataloq kitabxana fondunun real uçotunu, oxucuların statistikasını, maraq dairəsinin müəyyən edilməsinə, kitabın hərəkətinin izlənilməsinə, ədəbiyyat fondunun oxucu sorğusuna uyğun komplektləşdirilməsinə və yeniləşdirilməsinə, oxuculara müasir səviyyədə On-line olaraq xidmət təşkil etməyə imkan verir. Məhz elektron kataloq əlaqədar kitabxananın nəinki yerli oxucularına, həm də uzaq məsafədə yerləşən istifadəçilərə kitabxana-informasiya xidməti göstərmək imkanına malikdir.

Elektron kataloq ənənəvi kataloqdan fərqli olaraq təkcə biblioqrafik məlumatları deyil, digər elektron informasiyaları sistemli şəkildə özündə saxlayır, onların operativ və on-line axtarışını təmin edir. Elektron kataloq vasitəsilə kitabxana fondunu əks etdirən biblioqrafik informasiya daha ehtiyatlı qorunur. Elektron kataloqun üstünlüyündən biri də avtoritet yazılardan istifadəni təmin etməsidir. Bu gün rəqəmli texnologiyanın inkişafı kağız üzərində informasiyanın elektron formaya çevrilməsinə imkan verdiyindən elektron kataloqdan istifadə edən oxucu On-line olaraq öz tələbatına uyğun ədəbiyyatın kitabxanada olması haqqında biblioqrafik məlumat almaqla yanaşı onun elektron versiyasını da əldə edə bilər.

Azərbaycanda ilk dəfə olaraq elektron kataloqun yaradılması Bakı Dövlət Universitetində Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A.Xələfovun rəhbərliyi ilə "Kitabxanaların kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasında həyata keçirilmişdir. Laboratoriyanın əməkdaşları qısa müddət ərzində dövri mətbuat, xarici, rus və Azərbaycan dilində olan ədəbiyyat fondunun, nadir kitablar və dissertasiya fondunun elektron bazasının yaradılması işinə başlamışlar.

XXI əsrin informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana - informasiya təminatının təşkilində ifadə olunur. Elektron kitabxana-elektron sənədlərin, elektron kitabların - resursların yaradılmasını və saxlanılmasını təmin edən, həmçinin bu resurslara - kitabxananın məlumat bazasına hesablama texnologiyaları və informasiya şəbəkələri vasitəsilə (interfeys) "giriş" imkanı yaradan informasiya sistemidir. Elektron kitabxanalar informasiyalaşmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Belə ki, o, informasiyalaşmış cəmiyyətin baza prinsiplərinə: informasiyanın əmtəəyə çevrilməsinə, informasiya bazarının formalaşmasına, cəmiyyət üzvlərinin peşə və təhsil hazırlığının yüksəlməsinə, qlobal informasiya mühitinin yaranmasına xidmət edir. Elektron kitabxanalar keçən əsrin 90-cı illərindən başlayaraq fəaliyyət göstərməkdədir [1, 175]. Elektron kitabxanaların yaradılması üstünlükləri onunla izah edilir ki, istifadəçi müəyyən kitabxanaya gəlmədən, istənilən coğrafi ərazidə yerləşməsindən asılı olmayaraq həmin kitabxananın elektron resurslarından birbaşa istifadə edə bilir. Çap əsərlərini istənilən yerdə oxumaq daha əlverişli və rahatdır. Lakin onların geniş coğrafi məkanda axtarışı, tapılması və əldə edilməsi xeyli vaxt tələb edir. Elektron kitabxana vasitəsilə ən qiymətli və nadir nüsxəli ədəbiyyatdan istifadə etmək mümkün olur. Ən əsası isə elektron kitabxanalar həmişə

açıq olur, ənənəvi kitabxanalardan fərqli olaraq oxucuya "əldədir", "istifadə üçün yararsızdır", "yoxdur"cavabı verilmir.

Şübhəsiz, bütün bu üstünlüklər elektron kitabxananın ənənəvi kitabxanadan daha etibarlı olması demək deyil. Belə ki, kompüter sisteminin işi dayandıqda, şəbəkədə rabitə xətti ləng və etibarsız işlədikdə, virus yayıldıqda və s. elektron kitabxanada ciddi problemlər yarana bilər. Bu baxımdan zəngin informasiya resurslarına malik olan kitabxanalar eyni zamanda informasiya bazarının əksər komponentlərinə sahiblik hüququnu da özündə saxlayır. Elektron kitabxanaların yaradılmasının əsas məqsədləri informasiya xidmətinin keyfiyyətinin yüksəldilməsi, informasiya xidmətləri nomenklaturasının genişləndirilməsi, elektron resurslara keçid zamanı istifadəçilərin sayının artırılmasıdır.

Elektron kitabxanalarda informasiyaların elektron formasında təqdim edilməsi, elektron resursların istifadəçisi qarşısında çox böyük imkanlar açır. Elektron kitabxanalardan, onların əhəmiyyətindən bəhs edərkən aşağıdakı üstünlükləri xüsusilə qeyd etmək lazımdır:

Oxucu-istifadəçi işdən kənar vaxtlarda qapıları bağlı olan ənənəvi kitabxanalardan fərqli olaraq elektron kitabxanalardan zamandan və məkandan asılı olmayaraq istədiyi informasiyanı əldə etmək imkanına malik olur;

Ənənəvi kitabxanada kitabların axtarılıb oxucuya təqdim olunmasına sərf olunan vaxt ərzində oxucu öz evində elektron kitabxanada elektron kataloqu nəzərdən keçirib, istədiyi elektron kitabı "vərəqləyib" istədiyi qədər oxuya və hətta onu bir başqası ilə əvəz edə bilər;

Elektron kitabxanaların fəaliyyəti ənənəvi kitabxanalara da xeyli fayda gətirir – belə ki, elektron kitabxanalar nadir və qiymətli kitabların elektron versiyalarını hazırlayıb oxuculara təqdim etməklə bu kitabların orijinalının mühafizə olunmasını, onların korlanmasının qarşısının alınmasını təmin edir, hər hansı bir səbəbdən yox olması, itməsi halında bu kitabların elektron surətlərinin qorunmasını təmin edir. İnformasiya çatışmazlığı probleminin həllində də elektron kitabxanalar ənənəvi kitabxanaların köməyinə çatırlar;

Elektron kitabxanalarda həmçinin, oxucuya yeni formada kitabxana xidmətinin reallaşdırılması (görmə qabiliyyətində problemi olan oxuculara xidmət) imkanı yaranır;

İstifadəçi elektron kitabxanadan öz kompüterinə yüklədiyi materialları redaktə etmək, onları birləşdirmək və əlavələr yazmaq, böyük materiallardan istədiyi söz və ya ifadələri asanlıqla seçmək imkanına malik olur;

Bütün bunlarla yanaşı elektron kitabxanalarda elektron resurslarla iş sürətlə işləməyə və keyfiyyətli axtarışlar həyata keçirməyə tam şərait yaradır.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası da öz növbəsində dünya biliklərinə və məlumatlarına girişi təmin etmək, dünya oxucularına qlobal şəbəkə vasitəsilə milli sərvət xəzinəsi olan kitabxanamızın fondu

haqqında məlumatları çatdırmaq üçün elektron məlumat bazalarının yaradılması istiqamətində böyük işlər görmüşdür. Belə ki, 2000-ci ildə respublikamızda ilk dəfə olaraq avtomatlaşdırılmış kitabxana sistemlərinin tətbiqi istiqamətində ilk adddımlar atılmışdır. Bu məqsədlə Milli Kitabxanada Elektron resurrsların yaradılması şöbəsi təşkil edilmişdir. ABŞ səfirliyinin, Soros və Avrasiya fondlarının maliyyə dəstəyi ilə ABŞ-ın VTLS korporasiyasının məxsusi kitabxanalar üçün işləyib hazırladığı VIRTUA proqramının tətbiqi ilə elektron kataloqun tərtibinə hazırlıq işlərinə başlanılmışdır. Üç illik hazırlıq işləri aparıldıqdan, beynəlxalq treninqlər keçirildikdən və lazimi mütəxəssislərin hazırlanması prosesi başa çatdıqdan sonra 2003-cü ildə elektron kataloqun tərtibi işlərinə başlanılmışdır. Milli Kitabxanada elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdir [3,172]. Milli Kitabxanada dünyanın ən böyük və zəngin kitabxanalarında daha çox tətbiq olunan VTLS-VIRTUA sistemi üzrə həyata keçirilən kitabxana proseslərinin avtomatlaşdırılması, oxucu sorğularının virtual rejimdə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanmasına şərait yaradan və onların təkrar istifadəsinə imkan verən avtomatlaşdırılmış sistem tətbiq olunur.

VIRTUA avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında oxuculara operativ məlumatın verilməsi məsələsini də həll etmişdir. Bu gün külli miqdarda vəsait sərf edərək yeni ədəbiyyat bülletenləri çap etməyə artıq ehtiyac yoxdur. Çünki kitabxanaya müxtəlif mənbələrdən daxil olan bütün ədəbiyyat Milli Kitabxananın saytındakı "Yeni ədəbiyyat" bölməsində əksini tapıb və oxucular həmin düyməni basmaqla hər gün kitabxanaya daxil olan yeni ədəbiyyat barədə məlumat ala bilirlər.

Milli Kitabxanada 2002-ci ildə "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları şöbəsi"nin (Elektron kitabxana) əsası qoyulmuş, 2006-cı ilin fevral ayından isə daha geniş fəaliyyətə başlamışdır. Milli Kitabxana nəzdində yaradılmış "Elektron kitabxana" özünün inkişafını təmin etmək məqsədilə burada olan milli nadir və qiymətli kitabların, hər hansı bir səbəbdən istifadəyə verilməsi məhdud olan və ya heç mümkün olmayan, oxucuların tapa bilmədiyi və ya çox çətin tapdığı ədəbiyyatın mühafizəsini təmin etmək və bu sahədə mövcud olan informasiya qıtlığını aradan qaldırmaq üçün həmin nəşrlərin elektron versiyalarının hazırlanması işinin təşkili ilə yaxından məşğul olmağa başlamışdır. Elektron Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət edir [4,18].

Azərbaycan Mili Kitabxanasının nəzdində Elektron Kitabxananın yaradılmasında məqsəd milli kitabxana fondunun mühafizəsi, fondun elektron versiyasının hazırlanması, Azərbaycan elminin nailiyyətlərinin İnternet vasitəsilə təbliği və informasiya təminatını təmin etməkdir.

M.F.Axundov adına Milli Kitabxana artıq indiyə kimi inqilaba qədərki bədii ədəbiyyatın əksəriyyətini işləyib onların elektron versiyasını hazırlamışdır.

İndi bilavasitə kitabxanaya gələn oxuculara elektron kitabxananın resursları lokal şəbəkə vasitəsilə, uzaq məsafəli istifadəçilərə isə qlobal şəbəkə - İnternet vasitəsilə təqdim olunur.

Hazırda Milli Kitabxananın saytında oxuculara kitabları həm əlifba sırası üzrə, həm də bu mənbənin aid olduğu elm sahəsi üzrə axtarış aparmaq imkanı da yaradılmışdır.

Eyni zamanda kitabxanada "Virtual sifariş" adlı bölmə oxuculara məsafədən sifariş (virtual) xidmətini təklif edir. Kitabxananın üzvü olan hər bir oxucu bu bölməyə daxil olmaqla kitabxanaya gəlmədən, iş və ya yaşayış yerindən ayrılmadan İnternet vasitəsilə kitab, jurnal və qəzet sifariş verə bilər. Elektron kitabxana müəllif hüquqlarını qoruyub saxlamaqla, milli ədəbiyyat nümunələrini elektron daşıyıcılarına tam dolğunluğuyla köçürür. Eyni zamanda elektron kitabxanaya müəllifin öz arzusu ilə onun təqdim etdiyi əsərin elektron versiyası da daxil edilir.

## ƏDƏBİYYAT

*1. Xələfov A. Qurbanov A. Kitabxanaların Kompüterləşdirilməsinin əsasları. Bakı: BUN, 2007, 200 s.*

*2. Xələfov A. İnformasiya cəmiyyəti və kitabxanaşünaslığın müasir problemləri. Kitabxanaşüaslıq və informasiya: Elmi-nəzəri və təcrübü jurnal. Bakı: 2010, №1.*

*3. Tahirov K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008-ci illər). Bakı, 2009, 218 s.*

*4. Tuliyeva İ. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında elektron resursların yaradılması // Müasir informasiya məkanı və kitabxanalar: Respublika elmi konfransının tezis və məruzələri. Bakı:BUN, 2010, s.15-20.*

*5. M.F.Axundov adına Milli Kitabxananın 2007-ci və 2008-ci il hesabatları.*

## THE ROLE OF THE ELECTRON CATALOGUE AND ELECTRON LIBRARY AND PAYING OF THE INFORMATION DEMAND OF THE READER PROBLEMS IN NATIONAL LIBRARY NAMED AFTER M.F.AKHUNDOV

**S.I.MAMMADOVA**

***SUMMARY***

*The role of the electron catalogue and electron library and paying of the information demand of the reader problems in National library named after M.F.Akhundov were reflected in this article. At the same time the creation of the electron catalogue for the first time professor by Abuzar Khalafov was reflected in the article.*

## РОЛЬ ЭЛЕКТРОННОЙ БИБЛИОТЕКИ И ЭЛЕКТРОННОГО КАТАЛОГА В НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКЕ ИМ.М.Ф.АХУНДОВА

**С.И.МАМЕДОВА**

***РЕЗЮМЕ***

*В статье указана роль электронной библиотеки и электронного каталога в Национальной библиотеке им. М.Ф.Ахундова. А также здесь указано, что впервые система электронного каталога в Азербайджане была основана профессором А.Халафовым.*